Məmoş

Əlindəki dəvətnaməyə birdə baxdı və məmənüniyət dolu bir gülümsəmə dudaqlarına qondu. Insanlar hər zaman bonun kimi ehsas dolu zamanlar istəsələrdə,  başları məişətə və dünyəvi işlərlə məşğul olduları üçün mümkün olmur. birdə ki axı nədənsizəcəsinə dünyada belə bir həsiyat necə insana əlverəbilər ki?

Bir anlıq olsada illər qabaq üz verən bir olay bügün ona belə bir razılıq və sevinc dolu anları yaşatmışdı .

Dəvətiyə bir uğlanın toyu və onun atası məhəmməd hüsiyn... tərəfindən göndərilsədə adın altında əllə yazılan  "Məmüş"  kəlməsi onun  sevəncinə nədən olmüşdü ...

Bir isti yaz gecəsi uşaqları böyük babanın bağına getmişdi və o iş icabı olaraq, evdə tək başınaidi. Gecənin bir vaxtı su içməyə uyandı və birdən aşağı qatdan bir səs eşitdi!

Aşağı yenrkən ala qaranlıqda otaqların birinə sürətlə qaçan bir adam görsədə, dalıca gümbültü və şüşə sınmasının səsi onu çaşbaş etmişdi .

Çırarqları yandırdı, səs gələn otağa gtidiyində, yerdə ozanıb qalan birini gördü! Yaxınlaşdı və üzündə neçə yerdən şüşə parçalarından dayaz yaralanan gənc yaşlardakı bir hüşdən getəmiş adam yerə sərilmişdi.

Bu kimdir deyə düşündü və onun bir oğru olduğonu  bilsədə məsüm qiyafəsi heç də oğru olduğunu göstərmirdi. Elə buna görədə indi niləməli dedi öz özünə !

Adamı dəqətlə incələdiğində, nıgran qalmalı yara görməyincə, ilk öncə polisə zəng eləmək aqlına gəlmişəsədə, bir anlıq dürüxədü vü fikirləşidi .

Bundan illər qabaq syasi ittihamla zindana düşdüğündə, zindan muhiti gənc insanlar üçün nəqədər pıs təsir buraxdığını görmüşdü v ora düşənlər, bilmədiklərini də orda öyərndikəlrinə tanıq olmüşdü və bonu  necə önləmək olar demişədi amma əqəli bir yerə çatmamışdı .

Gənc adamın üzündə olan şüşə parçaların birbir çıxartmağa başladı, hətta bəzi kıçık parçaları çıxartmaq üçün maqqac gətirməli olmüşdü. Sonra kasada sü gətirib, yaş kağazdəsmalla qanları təmizələməyə başladı və gəncin yavaş yavaş özünə gəlməsin və oyandığın həs ətədi. Gəncin uyanması və dikəsinərək yerdən qalxması bir o qədər çəkəmədi. İlk sözü qurxma oğlüm deməsi və yumuşaqca onun  əlindən tutub yanına oturtması olmüşdü .

Gənc oğlan giclər kimi oyan buyana baxırsada, bir də qorxa  qorxa  ona baxırdı. Gəncin məsum baxışları və gözlərinin günahsız rəngi ...

Ona köməklik eləməyə daha da kəsin qərar verdi. Saat gecənin dördünü geçirdi .

Bir yağ-yumurta yeyək sonra oturub doya doya danışarıq, indı qalxda mətəbəxə geçək dedi, gənc adama. Amma heç qurxma, səndə oğəru sifəti görmürəm mən. Dərdələşərik biraz .

Gənc adam üzündə gizlin utanma və bəlli bir qızarma və itaətkar bir halda onun dalısına düşmüşədü .

Dört yumurta yağa salıb, bir suğan soyub, parçaladıqdan sonra gəncin qarşısındakı stula oturdu. Hələ necə sözə başlyacağını bilmirdi. Yemək ona zaman qazandıracaqidi ki hardan və necə sözə başlasın. Buyur deyib susmuş gənci yeməyə dəvət etdi, ama gənc eşitəməmiş kimi heç bir hərkət etmədi və donub qaldı .

Gəncin əlindən tutub, bir parça çörək verərək, başla görk daha dedi. Gənc adam birdən hönkürtüylə ağlamağa başlaınca, adamın içi yanmışdı !

Bir iki tikə yeyək sonra bol bol danışacayıq. lazım olsa da birgə ağlarıq. Buyur dedi və bir yaxşı tikə tütdü özünə və ağzına qoydu. Gənc adam utana utana, səsizcə, yavaş yavaş olsada, yeməyə başladı. Onun nəqədər ac olduğonu anlamaq bir oqədərdə çəkmədi. Adamın içinə ağrı dolmuşdu və bu dəfə o hönkürə hönkərə ağlamaq istədi, ama özünü saxladı .

Necə girdin içəri suruşanda, gənc əlilə göstərərək pəncərədən demişədi .

-amma pəncərə bağlıdı və sənin yaralanıb düşməgində ondan !

Gəl göstər görüm dedigində, gənc adam yan utağa girib və açıq pəncərəni göstərincə, ikisi bir birinə baxıb və nə olduğonu anlayınca, birdən birə gülməyə başlamışdılar. Birı utana utana, o birı isə duyğu dolu !

Demək belə! o otaqdan giribdə, qaçan zaman kırıxıb yanındakı otaqdan qaçınca başına gəln bu olmuşdu !

Yeni tikdirdiği ev, şəhərin qırağında bir şəhərcikdə idi. Yeni dəb olmuş italyan modeli sürüşmə pəncərələri varidi əmma hələ hasarlı deyəldidilər. O gecə pəncərələrin bərkitəməsin unutmuşdu və hətta biri yarım açıq qalınca bu zavallı gənci ordan girməyə çağırmışdı .

yenə o gecə yadına duşub, tək başına gülməyə başladı və o gənc ilə aralarında keçən danışığı xatırladı !

-Adın nədı ?

-Məhəmməd Hüsein! Ağa .

-Neçə yaşındasan ?

-İyrmi. Ağa .

-Niyə bəs oğurluq elirsən və işləmirsən ?

-İş axtarmağa gəlmişdim amma tapanmadım.Mən oğərü deyiləm ağa .

-Hardan gəlibəsn ?

-Qərələr kəndidən ağa. Oralıyam .

-Biraz özündən danış görək, amma yalan malan yox. Yalan danışsan işin polislə olacaq. Düz danışsan sənə kömək eliəcəyəm .

-Baş üSstə ağa. Polisə verməyin hər şeyi deyərəm .

-Oldu razılaşdıq. indi təriflə görək !

-Qərələr kəndidə məşəhədi Nadəlinin Oğluyam. Kənd işindən bezaram. Hələ ağamla birgə işələməyi! heç deməyin. Həm işələdir həm danlır, həm söyür hələ birzamanlar döyərdi də. Əsgərlikdən 34 gündü gəlmişəm. Ağama kətdə qalmaq istəmədyimi deyincə, çux hirsləndi, israr edincə, çıx get dedi. Anam bir az pul verdi gəlib şəhərdə işələrm dedim amma indi 12 gündü heç iş tapanmadım və pulum da qurtuldu. Gecələri parkda yatıram əmma kəndə qaytmaq və ağamın yanında işələməyı heç istəmirəm. Bu gecədə şəhərdən çixdim bir yul axtarırdım özümü öldürəm ki pəncərənizi açıq güörüncə gəlib bir şey tapıb yeməyə tamahlandım. Sonra ...

-Daha haralardan oğurluq eləyibsən ?

-Heç yerdən ağa !

-Bax, olmadı! Düz danışmağa razılaşdıq. Doğrusun desən sənə kömək elərm, yoxsa ...

-Baş üstə düzün deyərm. Dörd gün qabaq pulum qürtülmüşdü, bir qapını açıq gördüm, girib ordan bir cüt başmaq alıb qaçdım. Sunra bir pinəçi satmaq istədim, almadı və mənə onları götür bazar içində köhnə mal hərrac bazarında sat dedi. Satdım dönən naharda aldığım çörkdən sonra o pulda qurtuldu. Nənəmin canına and içirəm bundan sonra heç bir şey olmayıb !

-Sənə bir iş tapsam, necə inanım ki birdə belə işlər görmüyəcəkəsn ?

-Ağa söz verirəm ağa... mən oğrü deyəlm ağa. Mən iş axtarıram ağa ...

-Gedək atanla danışım, sonra ...

-Ağa çox xahiş elirəm məni kəndimizə götürməyin! Bilməsinlər mən belə iş görmüşəm. Nə desəz elərəm .

-Kiməsəyə demək istəmirəm ancaq birazda sənə inamaq üçün kəndizə gedib və dediklərinin duz olduğun öyərnmək üçün gedirik. Duz demişsən, heç qurxma. Səndən muğayat olacağam .

-İnanın ağa hər nə dedim düzdür !

-onda qalx gedək. Yol üstündə bir tətanoz(kozaz) iynəsi vurduraq sonra işimizə baxaq !

Sonunda Qərələr kəndinə getməklərin və o gəncin atasıyla görüşüb, çox çətinliklə onları barışdırandan sonra oğlan atasının əlin öpəndən sonra, gəl də məni özünə daha böyük qardaş bil, demişədiş Məndə bundan sunra sənə məhəməd hüseyn yux "Məmüş" deyəcəyəm kiı daha səmimi olsun, deməsini və ikisinində sevincli bir halda qayıtmaqların xatırladı və bir daha razılıq gülüşü dudaqlarına qondu .

Yemək maddələri əstehsalı fabriki olan bir xeyir sevər yuldaşından o gəncə iş istədi . Gecələri də fabrıkada qalmaq imkanı daxil olaraq gənc, uyğun bir əmək haqqıla işə başladı. Gəncin başına gəlnəlridə qısa bir şəkildə dostuna anlatmışdı ki gözü onun üstündə olsun deyə .

Gənc o fabrıkada işə başladıqdan sonra, hər xəbər aldıqında dostu ondan razı olduğonu bildirmişdi. Neçə ay sonra fabrikanın gözətcisi belə olmuşədu o gənc. 3 il ondan sunra bu günki kimi "Məmüş"un toy sin almışdı ...

İndı bu dədəvətnamə "Məmüş"un oğlunun toy dəvətiyəsidi ki onun dodağlarına bo sevinc dolu guluşu gətirmişdi .

İndi gedib bir hədiyə almaq vaxtıdı, deyəb yerindən qalxdı ...